Azərbaycan Respublikası İqtisadiyyat nazirinin
13 may 2019-cu il tarixli F-93 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**İqtisadi siyasət şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) aparatının struktur bölməsi olan İqtisadi siyasət şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində ölkənin iqtisadi vəziyyətinin təhlili əsasında iqtisadi fəaliyyətin tənzimlənməsi yollarının və Azərbaycan Respublikasının iqtisadi inkişafının, onun əsas istiqamətlərinin müəyyənləşdirilməsini, makroiqtisadi siyasətin, iqtisadi və sosial proqnozların işlənib hazırlanmasını, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafını, iqtisadi siyasətin əlaqələndirilməsi istiqamətində işlərin təşkilini həyata keçirir, iqtisadiyyatda struktur və innovasiya tədbirlərinin hazırlanmasında, dövlət müəssisələri ilə işlərin təşkilində iştirak edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası İqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra - Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. ölkənin iqtisadi inkişafı sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata

keçirilməsində iştirak edir;

2.0.2. ölkənin iqtisadi inkişaf proqnozlarının hazırlanmasını təmin edir və dövlət və icmal büdcələrin gəlir və xərclərinin əsaslandırılmasında iştirak edir;

2.0.3. aidiyyəti şöbə ilə birlikdə ölkənin sosial inkişaf proqnozlarının hazırlanmasında iştirak edir;

2.0.4. makroiqtisadi səviyyədə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf dinamikasını təhlil edir;

2.0.5. ölkə iqtisadiyyatına qoyulan investisiyaların təhlilini aparır;

2.0.6. ölkədə və dünyada gedən iqtisadi prosesləri izləyir, təhlillər aparır və buna müvafiq olaraq hesabat və təkliflər hazırlayır;

2.0.7. aidiyyəti dövlət orqanları ilə birlikdə ölkənin iqtisadi inkişaf, o cümlədən prioritet sahələrin inkişafı üzrə konsepsiyaların və dövlət proqramlarının hazırlanmasında iştirak edir;

2.0.8. Nazirliyin fəaliyyət istiqamətləri üzrə görülmüş işlərə dair analitik illik hesabatın icmalını hazırlayır;

2.0.9. ölkə iqtisadiyyatında struktur və innovasiya siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.0.10. dövlət müəssisələrinin gəlir və xərclər smetalarını təhlil edir və onlar ilə işlərin təşkilini həyata keçirir;

2.0.11. ölkənin iqtisadi təhlükəsizliyi və davamlı inkişafı, iqtisadi maraqlarının qorunması sahəsində tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.0.12. dövlət idarəetməsi, maliyyə, o cümlədən büdcə, vergi, maliyyə-kredit və valyuta, bank, sığorta, qiymətli kağızlar bazarı, dövlət satınalmaları üzrə dövlət siyasətinin və tənzimlənməsinin, bu sahələrinin inkişafı üzrə təkliflərin və tədbirlərin hazırlanmasında iştirak edir;

2.0.13. iqtisadiyyatın istehsal, xidmət, infrastruktur sahələrində dövlət siyasətinin və tənzimlənməsinin, bu sahələrinin inkişafı üzrə təkliflərin və tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.0.14. qeyri-neft sahələrinin inkişafı ilə bağlı inkişaf planlarının, konsepsiyaların və proqramların hazırlanmasında və ekspertizasının aparılmasında iştirak edir;

2.0.15. iqtisadi siyasətin əlaqələndirilməsi istiqamətində işlərin təşkilini həyata keçirir;

2.0.16. aidiyyəti orqanlarla birlikdə ölkənin ərzaq təhlükəsizliyi sahəsində tədbirlər hazırlayır və həyata keçirir;

2.0.17. müvafiq sahənin inkişafını təmin edir;

2.0.18. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.0.1. ölkənin iqtisadi vəziyyətinin inkişaf dinamikasını təhlil etmək və ortamüddətli makroiqtisadi proqnoz göstəricilərini və proqnoz ərzaq balansını hazırlamaq;

3.0.2. ölkə iqtisadiyyatına qoyulan investisiyaların təhlilini aparmaq, bununla bağlı arayışlar hazırlamaq;

3.0.3. ölkədə və dünyada gedən iqtisadi prosesləri izlənmək, təhlillər aparmaq və buna müvafiq olaraq hesabatlar və təkliflər hazırlamaq;

3.0.4. ölkənin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin və bu sahələr üzrə prioritetlərin müəyyənləşdirilməsində iştirak etmək və iqtisadi-sosial inkişaf konsepsiyasının layihəsini hazırlamaq;

3.0.5. Nazirliyin fəaliyyət istiqamətləri üzrə görülmüş işlərə dair illik hesabatın icmalını hazırlamaq;

3.0.6. dövlət idarəetməsi, maliyyə, o cümlədən dövlət büdcəsi, vergi, maliyyə-kredit və valyuta, bank, sığorta, qiymətli kağızlar bazarı, dövlət satınalmaları sahələrində dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.0.7. iqtisadiyyatın istehsal, xidmət, infrastruktur sahələrində dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.0.8. qeyri-neft sahələrinin inkişafı ilə bağlı inkişaf planlarının, konsepsiyaların və proqramların hazırlanmasında və ekspertizasının aparılmasında iştirak etmək;

3.0.9. iqtisadi siyasətin əlaqələndirilməsi istiqamətində işlərin təşkilini həyata keçirmək;

3.0.10. dövlətin iqtisadi siyasətinin hazırlanması və həyata keçirilməsində iştirak etmək və iqtisadiyyatın dövlət tənzimlənməsi barədə təkliflər hazırlamaq;

3.0.11. ölkə iqtisadiyyatında struktur siyasətinin əsas istiqamətlərinin hazırlanması və onun həyata keçirilməsi işinin təşkili ilə bağlı təkliflər vermək;

3.0.12. iri dövlət müəssisələrinin gəlir və xərclər smetalarını təhlil etmək, onların smetalarının razılaşdırılmasında və icrasına nəzarətin həyata keçirilməsində və əlaqələndirmədə iştirak etmək;

3.0.13. iqtisadiyyatda innovasiya və elmi-texniki siyasətin formalaşmasında iştirak etmək;

3.0.14. fəaliyyət istiqamətləri üzrə məqsədli proqramları və konsepsiyaları, o cümlədən iqtisadiyyatın qabaqcıl sahələrinə və davamlı inkişafa dair proqram layihələrini Nazirliyin

aidiyyəti strukturları ilə birlikdə hazırlamaq və həyata keçirilməsində iştirak etmək, digər dövlət orqanları tərəfindən hazırlanmış dövlət proqramlarının layihələri üzrə rəylər hazırlamaq;

3.0.15. ölkədə əsas fondların yenidən qiymətləndirilməsində, amortizasiya normalarının hazırlanmasında və tətbiq olunmasında iştirak etmək;

3.0.16. ölkənin iqtisadi, o cümlədən ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin işlənib hazırlamasında və həyata keçirilməsində iştirak etmək;

3.0.17. enerji resurslarından səmərəli istifadə mexanizmlərinin və ölkənin yanacaq-enerji balansının işlənib hazırlanmasında, onun strukturunun təkmilləşdirilməsində iştirak etmək;

3.0.18. bu Əsasnamə ilə müəyyən olunmuş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, belə layihələrin hazırlanmasında, baxılmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.0.19. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.0.20. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.21. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.22. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair təkliflər vermək, belə sənəd layihələrinin iqtisadi əsaslandırılmasına baxmaq, verilən təkliflərin iqtisadi səmərəliliyini qiymətləndirmək;

4.0.2. Nazirliyin fəaliyyət istiqamətləri üzrə iqtisadi sahələri tənzimləyən qanunvericilik aktlarının, inkişaf planlarının, konsepsiyaların və proqramların layihələrinin və proqnozların hazırlanması prosesinə zərurət yarandıqda müstəqil ekspertlərin, mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.0.3. ölkədə aparılan iqtisadi siyasətə uyğun olaraq dövlət rüsumlarının və vergilərin, digər icbari ödənişlərin dərəcələri ilə bağlı təkliflər hazırlamaq;

4.0.4. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr, monitorinqlər, tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, iqtisadi sahədəki qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

4.0.5. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.0.6. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.0.7. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.0.8. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarından, fiziki və hüquqi şəxslərdən zəruri məlumatların əldə olunması barədə müraciətlərin layihələrini hazırlamaq;

4.0.9. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.0.10. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Makroiqtisadi təhlil və proqnozlaşdırma sektoru, Maliyyə-kredit siyasəti sektoru, Qeyri-neft sektorunun inkişafı sektoru, Aqrar və ərzaq təhlükəsizliyi sektoru, İnfrastruktur siyasəti və dövlət müəssisələri ilə iş sektoru, Analitika və icmal sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin

yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Makroiqtisadi təhlil və proqnozlaşdırma sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. ölkənin sosial-iqtisadi vəziyyətinin inkişaf dinamikasını təhlil etmək və ortamüddətli makroiqtisadi proqnoz göstəricilərini hazırlamaq;

6.1.2. dövlət büdcəsinin formalaşdırılması üçün ölkənin iqtisadi və sosial inkişafının proqnoz göstəricilərinin hazırlanmasında iştirak etmək;

6.1.3. aidiyyəti dövlət orqanları ilə birlikdə toplu maliyyə və tədiyə balanslarını proqnozlaşdırmaq;

6.1.4. əsas makro blokların (real, fiskal, monetar, xarici sektor) hər birində baş verən

dəyişiklikləri yaxından öyrənərək, sahələrarası əlaqələrin monitorinqinin aparılması və mövcud maliyyə proqramlarından istifadə etməklə makro tarazlığın təmin olunması ilə bağlı şöbənin rəhbərliyinə təkliflər vermək;

6.1.5. ölkə və dünya iqtisadiyyatının mütəmadi olaraq makroiqtisadi səviyyədə təhlilini aparmaq və bu təhlillərin əsasında müvafiq təkliflər hazırlamaq;

6.1.6. Azərbaycan Respublikası ilə tərəfdaş ölkələr arasında baş verən iqtisadi prosesləri yaxından izləyərək, Nazirliyin digər strukturları ilə birlikdə həmin ölkələrdə baş verən iqtisadi dəyişikliklərin ölkəyə mümkün təsirini təhlil etmək və qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində təkliflər hazırlamaq;

6.1.7. makroiqtisadi səviyyədə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf dinamikasını təhlil etmək və müvafiq arayışlar hazırlamaq;

6.1.8. ölkə iqtisadiyyatına qoyulan investisiyaların təhlilini aparmaq, bununla bağlı arayışlar hazırlamaq;

6.1.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Maliyyə-kredit siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. müvafiq dövlət orqanları ilə birlikdə dövlətin sosial-iqtisadi siyasətinin hazırlanmasında və büdcə, vergi, monetar, pul-kredit, qiymətli kağızlar, valyuta və digər iqtisadi sahələrdə prioritetlərin müəyyən olunmasında iştirak etmək;

6.2.2. dövlət idarəetməsi, maliyyə, o cümlədən dövlət büdcəsi, vergi, maliyyə-kredit və valyuta, bank, sığorta, qiymətli kağızlar bazarı, dövlət satınalmaları və digər sahələrdə dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.2.3. dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinin təmin edilməsi ilə bağlı qanunvericilik aktlarının layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

6.2.4. ölkədə əsas fondların yenidən qiymətləndirilməsində, amortizasiya normalarının hazırlanmasında və tətbiq olunmasında iştirak etmək;

6.2.5. ölkənin iqtisadi təhlükəsizliyi ilə bağlı tədbirlərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.2.6. ölkədə aparılan iqtisadi siyasətə uyğun olaraq, vergilərin, dövlət rüsumlarının və digər icbari ödənişlərin dərəcələri ilə bağlı təkliflər hazırlamaq;

6.2.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş

işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Qeyri-neft sektorunun inkişafı sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. fəaliyyət istiqamətləri üzrə dövlətin sosial-iqtisadi siyasətinin, o cümlədən qeyri-neft sahələri üzrə iqtisadi siyasətinin hazırlanmasında iştirak etmək;

6.3.2. qeyri-neft sahələrinin inkişafı ilə bağlı inkişaf planlarının, konsepsiyaların və proqramların hazırlanmasında və ekspertizasının aparılmasında iştirak etmək, digər dövlət orqanları tərəfindən bu istiqamətdə hazırlanmış sənəd layihələrinə rəy vermək;

6.3.3. qeyri-neft sahələri üzrə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq, o cümlədən bu tənzimləmə tədbirlərinin əsaslandığı qanunvericilik aktlarının layihələrinin hazırlanmasında və ekspertizasının aparılmasında iştirak etmək, bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

6.3.4. qeyri-neft sektorunda prioritet və qabaqcıl sahələrin müəyyən olunması istiqamətində təhlillər aparmaq və dəstəklənməsi üzrə təkliflər vermək;

6.3.5. iqtisadiyyatda innovasiya və elmi-texniki siyasətin formalaşmasında iştirak etmək;

6.3.6. enerji resurslarından səmərəli istifadə mexanizmlərinin təkmilləşdirilməsində iştirak etmək;

6.3.7. fəaliyyət sahəsi üzrə dünyada baş verən iqtisadi prosesləri təhlil etmək və həmin proseslərin ölkənin təhlükəsizliyinə təsirini qiymətləndirmək;

6.3.8. qeyri-neft sahələrinin inkişaf meylləri və istiqamətləri ilə bağlı araşdırmalar aparmaq və analitik hesabatlar hazırlamaq;

6.3.9. qeyri-neft sahələrinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində təkliflər hazırlamaq;

6.3.10.fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.11.fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. Aqrar və ərzaq təhlükəsizliyi sektorunun vəzifələri aşağıdakılardır:

6.4.1. fəaliyyət istiqamətləri üzrə dövlətin aqrar və ərzaq təhlükəsizliyi siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.4.2. aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyi ilə bağlı inkişaf planlarının, konsepsiyaların, proqramların və qanunvericilik aktlarının layihələrinin hazırlanmasında

iştirak etmək, digər dövlət orqanları tərəfindən bu istiqamətdə hazırlanmış sənəd layihələrinə rəy vermək;

6.4.3. aqrar sektor və ərzaq təhlükəsizliyi ilə bağlı analitik təhlillər aparmaq və ölkənin ərzaq məhsulları ilə təminatının gücləndirilməsi üzrə təkliflər hazırlamaq;

6.4.4. dövlət büdcəsinin formalaşdırılması üçün aqrar sektor üzrə sosial-iqtisadi inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin hazırlanmasında iştirak etmək;

6.4.5. ölkənin proqnoz ərzaq balansını hazırlamaq;

6.4.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.4.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.5. İnfrastruktur siyasəti və dövlət müəssisələri ilə iş sektorunun vəzifələri aşağıdakılardır:

6.5.1. dövlətin iqtisadi və sosial siyasətinə uyğun infrastruktur sahələrinin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

6.5.2. infrastruktur sahələrinin fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi üçün qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

6.5.3. dövlət büdcəsinin formalaşması üçün infrastruktur sahələri üzrə sosial-iqtisadi inkişaf konsepsiyasının, proqnoz göstəricilərinin hazırlanmasını təmin etmək;

6.5.4. infrastruktur sahələrinin inkişaf strategiyalarının və məqsədli proqramların hazırlanmasında iştirak etmək;

6.5.5. dövlət müəssisələri ilə işlərin təşkilində iştirak etmək;

6.5.6. iri dövlət müəssisələrinin gəlir və xərclər smetalarını təhlil etmək, onların smetalarının razılaşdırılmasında və icrasına nəzarətin həyata keçirilməsində və dayanıqlı fəaliyyətlərinin təmin edilməsi üzrə təkliflərin hazırlanmasında iştirak etmək;

6.5.7. ölkənin yanacaq-enerji balansının hazırlanmasında, onun strukturunun təkmilləşdirilməsində iştirak etmək;

6.5.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.5.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.6. Analitika və icmal sektorunun vəzifələri aşağıdakılardır:

6.6.1. ölkənin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin və bu sahələr üzrə

prioritetlərin müəyyənləşdirilməsində iştirak etmək və iqtisadi-sosial inkişaf konsepsiyasının layihəsini hazırlamaq;

6.6.2. aidiyyəti dövlət orqanları ilə birlikdə dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasında iştirak etmək;

6.6.3. iqtisadiyyatın inkişaf dinamikasını təhlil etmək və onun icmalını mütəmadi olaraq hazırlamaq;

6.6.4. Nazirliyin fəaliyyət istiqamətləri üzrə görülmüş işlərə dair illik analitik hesabatın icmalını hazırlamaq;

6.6.5. iqtisadiyyatın sahələri üzrə məqsədli proqramların hazırlanmasında iştirak etmək və digər dövlət orqanları tərəfindən hazırlanmış proqram layihələrinə dair rəy və təkliflər hazırlamaq;

6.6.6. dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinin təmin edilməsi ilə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək və digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

6.6.7. İqtisadiyyat nazirinin əmr və tapşırıqlarının, Nazirliyin kollegiya və iclaslarından irəli gələn tapşırıqların əlaqələndirilməsi, icrası, icrasına nəzarəti və görülmüş işlərə dair məlumatların aidiyyəti üzrə təqdim olunmasını təmin etmək;

6.6.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.6.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.